**BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 500 (beş yüz) ədəd adlı, faizli sənədsiz, təmin edilməmiş istiqrazların**

# EMİSSİYA PROSPEKTİ

Qeyd: Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Bakı, 2023-cü il

# MÜNDƏRİCAT


BƏYANAT ........ 3
XÜLASƏ ........ 4
1. XƏBƏRDARLIQ ........ 4
2. EMİTENT HAQQINDA MƏLUMAT ........ 4
3. QİYMƏTLİ KAĞIZLAR HAQQINDA MƏLUMAT ........ 7
4. RİSK FAKTORLARI ........ 9
5. TƏKLİF ........ 11
I HİSSƏ ........ 14
İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR ........ 14
6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT ........ 14
7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI ........ 14
8. EMİTENT BARƏDƏ MƏLUMAT ........ 15
9. EMİTENTİN BİZNESİNİN İCMALI ........ 16
10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK ........ 17
11. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT ........ 17
12. GƏLİR PROQNOZU ........ 17
13. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI ........ 18
14. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI ........ 20
16. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI ........ 22
17. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR ........ 32
II HİSSƏ ........ 34
İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT ........ 34
18. ƏSAS MƏLUMAT ........ 34
19. İSTİQRAZLAR HAQQINDA MƏLUMAT ........ 36
20. TƏKLİFİN ŞƏRTLƏRİ ........ 38
21. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ ........ 41
22. KREDİT REYTİNQLƏRİ ........ 42

**İstiqrazların emissiya prospektinin tərtib edilməsində iştirak edən şəxslər və emissiya prospektində təqdim edilmiş məlumatlara dair**

**BƏYANAT**

Biz aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2. "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-nin hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 500 (beş yüz) ədəd adlı, faizli, sənədsiz, təmin edilməmiş istiqrazlarının Emissiya Prospektinə daxil edilən bütün məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyətinin Sədri:**

**Aynur Əliyeva**

**Tarix: 13 noyabr 2023-cü il**

Bank Olmayan Kredit Təşkilatı Viator Mikrokredit Azərbaycan MMC

**"BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyətinin Sədr Müavini/Maliyyə Meneceri**

**Ruslan Qarayev**

**Tarix: 13 noyabr 2023-cü il**

# XÜLASƏ

## 1. XƏBƏRDARLIQ

1.1. Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya Prospektini oxumasından sonra həyata keçirilməlidir.

1.3. Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya istiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. EMİTENT HAQQINDA MƏLUMAT

2.1. **Emitentin tam adı:** "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra Emitent və ya Cəmiyyət).

2.2. **Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi**: 1400163551, 30 dekabr 2002-ci il. 30 sentyabr 2003-cü il tarixində Cəmiyyət 136-QB №-li lisenziya ilə Azərbaycan Respublikasının Mərkəzi Bankı (ARMB) tərəfindən qeydə alınmışdır.

2.3. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 44, AZ1065; Məhdud Məsuliyyətli Cəmiyyət.

2.4. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** BANK OLMAYAN KREDİT TƏŞKİLATI "Viator Mikro Kredit Azərbaycan" MMC əsasən riteyl və mikro biznes kredit bazarında fəaliyyət göstərir.

Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən faktorlar olan valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində Emissiya Prospektini hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır.

Emitent strateji olaraq kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirir. Diversifikasiya tədbirləri partnyor, region, sektor və digər meyarlar üzrə həyata keçirilir ki, bu da kredit portfelinin daha keyfiyyətli və risksiz idarə olunması üçün önəmlidir. Emitent bazar risklərini nəzərə alaraq öz fəaliyyətini rəqabətə dayanıqlıq strateqiyası ilə həyata keçirir. Xüsusən regionlarda maliyyə əlçatanlığı aşağı səviyyədə olan ərazilərdə fəaliyyat göstərir.

2.5. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**

Emitentin digər hüquqi şəxslərdə mövqeyi mövcud deyil.

2.6. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:**

Mövcud deyil.

2.7. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

"UHY AUDİT" MMC tərəfindən BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" Məhdud Məsuliyyətli Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditi aparıldı.

Kənar audit şirkətinin rəyinə görə, konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

2.8. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir**

**Prudensial hesabatlara uyğun təqdim edilir:**

**Link:** https://viator-az.com/uploads/posts/auditrep/audit2022_aze.pdf

https://viator-az.com/uploads/posts/auditrep/audit21_aze.PDF

https://viator-az.com/uploads/posts/auditrep/audite_report_2020_az.pdf

| Göstəricilər | 31 Dekabr 2022 Audit olunmuş | 31 Dekabr 2021 Audit olunmuş | 31 Dekabr 2020 Audit olunmuş |
|---|---|---|---|
| Cəmi aktivlər | 7,164,206 | 6,685,410 | 6,823,680 |
| Cəmi öhdəliklər | 2,655,639 | 2,325,544 | 2,523,619 |
| Cəmi kapital | 4,508,567 | 4,359,866 | 4,300,061 |
| Pul vəsaitləri | 450,049 | 109,993 | 393,452 |
| Kredit portfeli | 6,265,458 | 6,134,322 | 5,962,153 |

| | | | |
|---|---|---|---|
| Gəlirlər | 1,521,152 | 1,368,773 | 1,347,336 |
| İl üzrə məcmu gəlir | 148,701 | 131,715 | 205,442 |

2.9. **Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

Emitent devalivasiyadan sonra maliyyə eytiyaclarını yerli bank və istiqraz bazarı köməyi ilə maliyyələşdirib. İlk olaraq 2021-ci ildən istiqraz bazarına daxil olaraq adsız, təmin edilməmiş istiqraz buraxılışı baş tutmuşdur və hal-hazıradək uğurla 4 dəfə istiqraz yerləşdirilməsinə nail olmuşdur. 2021-ci ildən başlayaraq yerli banklar ila sıx əməkdaşlıq edərək Emitent ilk kreditini 2022-ci ildən almağa müvəffəq olmuşdur və hal-hazıradək aktiv 4 bank krediti mövcuddur. Son üç ildə cəlb edilmiş vəsaitlərin həcmi barədə məlumatı aşağıdakı qaydada təqdim edilir:

- İstirazların həcmi artan yekun ilə - 1,100,000 AZN
- Bank kreditlərin həcmi artan yekun ilə - 3,566,000 AZN.

Emitentin ödəmə qabiliyyətinə təsir edən əsas faktor olan kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Aşağıdakı cədvəldə 30 gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| Göstəricilər | 2022 | 2021 | 2020 |
|---|---|---|---|
| PAR>30 (məbləğ) | 2,333,920 | 2,594,490 | 2,807,460 |
| PAR>30/Portfel (%) | 26.92 | 31.01 | 32.52 |

2.10. **Emitentin əsas fəaliyyətlərinin təsviri:** Emitent fiziki və hüquqi şəxslərə kreditlərin verilməsi və kreditlərin qaytarılmasına və bununla bağlı, borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhətlərin verilməsi və bu qəbildən olan digər xidmətləri göstərməkdir. Emitentin əsasən Azərbaycanın qərb bölgəsində fəaliyyət göstərir. Emitent əhalinin aztəminatlı hissəsinə, qaçqınlara, məvburi köçkünlərə, əlillərə, müharibədən zərər çəkən digər şəxslərə xüsusi diqqət yetirir və onların öz biznesini yaratmağa maliyyə dəstəyi verir. Eyni zamanda Emitent öz müştərilərinə ödənişsiz "Öz biznesini başla və inkişaf etdir" və "İlkin mühasibatlıq" təlimləri təşkil edir. Cəmiyyət fəaliyyətini öz vəsaiti və ya cəlb edilmiş vəsaitlər hesabına (depozitlər istisna olunmaqla) yalnız pul formasında kredit verməklə həyata keçirir. Cəmiyyət fəaliyyətinin həyata keçirilməsi üçün qüvvədə olan qanunvericiliyə müvafiq lisenziyaların (xüsusi razılıq) alınması nəzərdə tutulan fəaliyyət növləri ilə yalnız belə lisenziyaların alınmasından sonra məşğul ola bilər.

Emitent aşağıda qeyd olunan kateqoriyalar üzrə öz müştərilərinə kredit verilməsini təmin edir:

- ✓ Kənd Təsərrüfatı krediti
- ✓ Fərdi Sahibkar krediti
- ✓ Mikro kredit
- ✓ Sosial kredit
- ✓ Ekspress krediti
- ✓ İstehlak krediti
- ✓ Fərdi inkişaf krediti

2.11. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyətləri:** Cəmiyyətin nizamnamə kapitalının 100% həcmi bir hüquqi şəxsə məxsusdur:

| Adı | Vətəndaşlıq | Payların sayı | Nizamnamə kapitalında faiz nisbəti |
|---|---|---|---|
| "VİATOR AS" TƏŞKİLATI (Norveç Krallığı) | - | 100 | 100% |

Cəmiyyət aşağıdakı orqanlar tərəfindən idarə olunur:

- Ali idarəetmə orqanı olan Ümumi Yığıncaq;
- Ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzrə nəzarəti həyata keçirən Müşahidə Şurası;
- İcra orqanı olan İdarə Heyəti;
- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış digər idarəetmə orqanları.

Cəmiyyətin ali idarəetmə orqanı Ümumi Yığıncaqdır. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Cəmiyyətin təsisçisi 1 hüquqi şəxs olduğundan, Cəmiyyətin yeganə təsisçisi Ümumi Yığıncağın səlahiyyətlərini təkbaşına həyata keçirir. Cəmiyyətin Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir. Cəmiyyətin Müşahidə Şurası 3 (üç) il müddətinə 3 (üç) nəfər fiziki şəxsdən ibarət olmaqla, Cəmiyyətin Ümumi Yığıncağı tərəfindən seçilir.

## 3. QİYMƏTLİ KAĞIZLAR HAQQINDA MƏLUMAT

3.1. **İstiqrazların növü:** adlı, faizli, sənədsiz, təmin edilməmiş (bundan sonra: istiqraz və ya istiqrazlar)

3.2. **İstiqrazların valyutası:** Azərbaycan manatı

3.3. **Tədavül müddəti:** 540 təqvim günü

3.4. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** Mövcud deyil.

3.5. **İstiqrazların təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 14 (on dörd) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

3.6. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazların faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 14% təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 90 gündən bir ödəniləcəkdir. İstiqrazların tədavül müddəti 540 təqvim günü təşkil edir. İstiqrazların nominal dəyəri tədavül müddətinin sonunda ödəniləcək.

İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

3.7. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** Təmin edilməmişdir.

3.8. **İstiqrazların geri satın alınma şərtləri:** Tədavül müddəti ərzində istiqrazların geri satın alınması nəzərdə tutulmur.

3.9. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 540 təqvim günü təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların BFB-də yerləşdirildiyi gün başlayır. İstiqrazların nominal dəyəri istiqrazların tədavül müddətinin son günündə ödəniləcək.

İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir. İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF=(N*D*G/360)/100$$

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri - 1000 (Bir min) Azərbaycan manatı ;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -14 (on dörd);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 90 gün.

3.10. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların kütləvi yerləşdirilməsi nəzərdə tutulduğundan istiqrazların mülkiyyətçisi yalnız onların yerləşdirilməsindən sonra müəyyən oluna bilər.

3.11. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.12. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında hərrac vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları"na əsasən həyata keçirilir.

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti 2000-ci ildə təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- Dövlət qiymətli kağızlarının bazarının;
- Korporativ qiymətli kağızlarının bazarının;
- Törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1141, Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

Hüquqi ünvan: BAKI ŞƏHƏRİ SƏBAİL RAYONU, BÜLBÜL PR., ev 19, AZ1095

VÖEN: 1700262271

Lisenziya müddəti: müddətsiz

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar bazatı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 4. RİSK FAKTORLARI

4.1. **Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Valyuta riski – valyuta məzənnəsinin kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
- Faiz riski – faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Əməliyyat riski – daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Əmtəə qiymət riski - əmtəə qiymətlərində olan volatillikdən meydana gələn itki riskləri;
- Konsentrasiya riski – Cəmiyyətin fərdi müştəri və ya müştəri qrupuna qarşı məcmu kapitalının 25%-ni keçən riskləri;
- Spesifik borc aləti qiymət riski - borc alətləri üzrə emitentlə bağlı faktorlardan meydana gələn qiymət fərqi riski;
- Spesifik mövqe riski - maliyyə alətinin emitenti ilə bağlı faktorlardan meydana gələn qiymət fərqi riski;
- Hüquqi risk - qanunvericilikdə dəyişikliklər ilə bağlı risk (qanunvericilik riski) - yeni qanunvericilik aktlarının, o cümlədən vergi aktlarının yaranması və ya mövcud aktların dəyişməsi (ləğv edilməsi) ilə bağlı itkilərin baş verməsi mümkünlüyü. Qanunvericilik riskinə həmçinin qiymətli kağızlar bazarının hər hansı sektorunda fəaliyyəti tənzimləyən normativ-hüquqi aktların olmamasından baş vermiş itkilər də daxildir;
- Sosial-siyasi – siyasi və iqtisadi şəraitdə əsaslı dəyişikliklərin baş verməsi riski, sosial qeyri-stabillik riski, o cümlədən tətil riskləri, hərbi əməliyyatların başlanması riski;
- Təbii – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər).

4.2. **İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

İqtisadi kiçilmə, alıcılıq qabiliyyətinin aşağı düşməsi, devalivasiyanın olması və nəticədə müştərilərin öhdəliklərinin kəskin artması, eləcə də ödəmə qabiliyyətinin kəskin zəifləməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.

Eyni zamanda, Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları aşağıda qeyd olunan qaydada detallı olaraq verilmişdir:

- Bazar riski: Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul axınlarının bazar qiymətlərindəki dəyişikliklər səbəbindən dəyişkən olacağı riskdir. Cəmiyyətin məruz qaldığı bazar riskinə əsasən, faiz dərəcəsi riski və valyuta riski aiddir.
- Faiz dərəcəsi riski: Cəmiyyət bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır.
- Valyuta riski: Məzənnə fərqlərindən asılı olaraq maliyyə alətinin dəyərindəki dəyişmələr xarici valyuta riski adlanır. Cəmiyyətin maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı belə risklərin təsirinə məruz qalır.
- Likvidlik riski: Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir. Buraya faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır.

## 5. TƏKLİF

### 5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:

Emissiyanın məqsədi alternativ maliyyə resurslarının cəlb edilməsi yolu ilə Cəmiyyətin fəaliyyətinin genişləndirilməsi, kredit portfelinin artirilması yolu ilə mənfəətin əldə edilməsidir.

**Təklif şərtlərinin təsviri:**

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən "Azər-Türk Bank" ASC-də emitent adına açılmış müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (https://www.bfb.az) və Emitentin internet saytında açıqlanır (https://www.viator-az.com). İnvestorlar istiqrazların əldə edilməsi məqsədilə istənilən investisiya şirkətinə müraciət edə bilərlər.

Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:

Yerləşdirmənin başlanma tarixi: yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirilmənin başlanmasına ən azı 2 iş günü qalmış BFB-nin (https://www.bfb.az) və emitentin internet saytında (https://www.viator-az.com) hərracın baş tutacağı tarix açıqlanacaqdır.

Yerləşdirmənin başa çatma tarixi: Yerləşdirmə başlanıldığı tarixdən 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

5.2. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

5.2.1. **"Bakı Fond Birjası" QSC.** "Bakı Fond Birjası" QSC istiqraz və digər növ qiymətli kağızlarla ilkin və təkrar bazarda mütəşəkkil ticarəti təşkil edir. "Bakı Fond Birjası" QSC "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarət buraxılmasında marağı kommersiya xarakterlidir. "Bakı Fond Birjası" QSC qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur. BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti 2000-ci ildə təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızlar bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

**5.3.2. Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında qanunun 16.1-ci maddəsinə əsasən təsis edilən qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasında qiymətli kağızların saxlanılması, qiymətli kağızların reyestrinin aparılması, qiymətli kağızlar üzrə ödəniş agenti və digər aidiyyəti xidmətləri göstərir. Qiymətli kağızlar MDM-də saxlanılır, bu qiymətli kağızların sahiblərinin reyestri və uçotu da MDM tərəfindən aparılır. "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-nin yeni buraxılacaq istiqrazları üzrə müvafiq xidmətlər MDM tərəfindən həyata keçiriləcəkdir. Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**5.3.3. "CPM-İnvest İnvestisiya Şirkəti" ASC.** "CPM-İnvest İnvestisiya Şirkəti" ASC İŞ-07 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "CPM-İnvest İnvestisiya Şirkəti" ASC bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-nin yeni buraxılıcaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "CPM-İnvest İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-dən xidmət haqqı tutacaqdır. "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN"

MMC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "CPM-İnvest İnvestisiya Şirkəti" ASC-nin marağı kommersiya xarakterlidir.

**5.3.4.** Bu emissiyada iştirak edən MDM, BFB, emitentin İdarə Heyətinin Sədri Aynur Əliyeva, Emitentin İdarə Heyətinin Sədr Müavini/Maliyyə Meneceri Ruslan Qarayevin, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir və bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və birbaşa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyildir.

5.3. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

Qanunvericiliklə nəzərdə tutulan halda Emitent dividendlər üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur.

Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

Azərbaycan Respublikası Mülki Məcəllənin 997.2-ci maddəsinə əsasən, istiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır. Həmin Məcəllənin 1070.1-ci maddəsinə əsasən, istiqraz emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və ya diskont və əsas məbləği ödənilən borc investisiya qiymətli kağızıdır.

Anderrayter xidmətləri üçün tutulacaq komissiya Emitentə münasibətdə 1 %, istiqraz mülkiyyətçilərinə münasibətdə isə 0,5% təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən 1%, istiqraz mülkiyyətçiləri tərəfindən 0,5% olmaqla ödənilir.

Əqdin məbləğinin 0,02 % həcmində BFB komissiyası tutulur.

Əqdin həyata keçirilməsinə görə istiqrazların mülkiyyətçilərinin reyestrinin aparılmasına və istiqrazların saxlanmasına görə MDM tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti tərəfindən təsdiq olunmuş "Milli Depozit Mərkəzinin xidmət haqları"nın təsdiq edilməsi barədə Qərara uyğun olaraq, xidmət haqqları tutulur.

"Depo" hesabının açılması üçün hüquqi şəxslərdən 20 (iyirmi) AZN, fiziki şəxslərdən 10 (on) AZN tutulur.

Hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci bankdan asılı olaraq müəyyən olunur.

# I HİSSƏ

## İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR

### 6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Auditorun ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| 2020 | NEXIA EA QSC | World Business Centre, 15-ci mərtəbə, S.Rəhimov küçəsi 23, AZ1014, Bakı, Azərbaycan | NEXIA INTERNATIONAL |
| 2021 | UHY AUDIT MMC | ÇİNAR PLAZA 25-ci mərtəbə Bakı, Heydər Əliyev pr. 152, AZ1029 | UHY INTERNATIONAL |
| 2022 | UHY AUDIT MMC | ÇİNAR PLAZA 25-ci mərtəbə Bakı, Heydər Əliyev pr. 152, AZ1029 | UHY INTERNATIONAL |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Cəmiyyətin daxili qaydalarına əsasən xarici audit şirkətləri ilə 4 ildən çox müddətə müqavilə bağlana bilməz. Bu səbəbdən "NEXİA EA" QSC (VÖEN: 2001586411) ilə bağlanmış müqavilənin müddəti bitdiyi üçün yeni audit şirkəti ilə müqavilə bağlanmışdır.

### 7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

7.1. **Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| Göstəricilər | 31 Dekabr 2022 Audit olunmuş | 31 Dekabr 2021 Audit olunmuş | 31 Dekabr 2020 Audit olunmuş |
|---|---|---|---|
| Cəmi aktivlər | 7,164,206 | 6,685,410 | 6,823,680 |
| Cəmi öhdəliklər | 2,655,639 | 2,325,544 | 2,523,619 |
| Cəmi kapital | 4,508,567 | 4,359,866 | 4,300,061 |
| Pul vəsaitləri | 450,049 | 109,993 | 393,452 |
| Kredit portfeli | 6,265,458 | 6,134,322 | 5,962,153 |
| Gəlirlər | 1,521,152 | 1,368,773 | 1,347,336 |

| | | | |
|---|---|---|---|
| İl üzrə məcmu gəlir | 148,701 | 131,715 | 205,442 |

## 8. EMİTENT BARƏDƏ MƏLUMAT

**8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:**

BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" Məhdud Məsuliyyətli Cəmiyyəti

**8.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri:** Emitent 30 dekabr 2002-ci il tarixində 1400163551 №-li VÖEN ilə dövlət qeydiyyatına alınmışdır. 30 sentyabr 2003-cü il tarixində Emitent 136-QB №-li lisenziya ilə Azərbaycan Respublikasının Mərkəzi Bankı (ARMB) tərəfindən qeydə alınmışdır.

**8.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Mövcud deyil.

**8.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 44, AZ1065

Elektron poçt ünvanı: info@viator-az.org

İnternet səhifəsi: https://www.viator-az.com

Əlaqə telefonları: +994 22 257 00 39 / +994 50 256 02 06

**8.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil.

**8.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri mövcud deyil.

**8.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə Qapalı Səhmdar Cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.

Hüquqi ünvan: Bakı Şəhəri, Səbail Rayonu, Bülbül pr, ev 19, AZ1095

Faktiki ünvan: AZ1141, Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: https://www.bfb.az/az

Tel: (+99412) 498 98 20

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti 2000-ci ildə təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızlar bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 9. EMİTENTİN BİZNESİNİN İCMALI

### 9.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətinin təsviri:

Emitentin məqsədi hər bir fərdin və ailələrin həyat keyfiyyətini artıran və yaxşılığa doğru sürətlə irəliləyən cəmiyyətin iqtisadi ehtiyaclarını qarşılayan dünya səviyyəli mikro maliyyə müəssisəsi olmaqdır.

Emitentin məqsədi Azərbaycanda iqtisadi cəhətdən fəal, ancaq imkansız insanlara kömək etməklə onların gəlirlərini müvafiq və davamlı təklif etdiyimiz mikro maliyyə kreditləri ilə artırmaqdır. Emitent eyni zamanda cevik və sürətli lombard kreditləri təklif edir. Rəsmi iş yeri olan müştərilər istehlak kreditlərindən yararlana bilər.

Emitentin əsas dəyərləri çeviklik, yenilikçilik, məsuliyyət, düzgünlük, nikbinlik və etibardır.

Emitent aşağıda qeyd olunan kateqoriyalar üzrə öz müştərilərinə kredit verilməsini təmin edir (kateqoriyalar biznes fəaliyyətindəki həcminə mütənasib faiz dərəcəsi ilə birlikdə göstərilib):

- ✓ Kənd Təsərrüfatı krediti - 10%
- ✓ Fərdi Sahibkar krediti – 33%
- ✓ Mikro kredit – 14%
- ✓ Sosial kredit – 5%
- ✓ Ekspress krediti – 15%
- ✓ İstehlak krediti – 4%
- ✓ Fərdi inkişaf krediti – 19%

Ötən 3 il ərzində emitent tərəfindən yuxarıda qeyd olunan məhsullar üzrə toplam 9834 müştəriyə 26,290,600 AZN kredit verilib.

### 9.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:

Təqdim olunmuş yeni məhsullar və xidmətlər mövcud deyil.

**9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

BOKT Viator Mikrokredit Azərbaycan MMC 24 ildir Azərbaycanın qərb zonasında öz fəaliyyətini davam etdirir və bu müddət ərzində 110.000-dən cox müştəriyə xidmət göstərmiş və 462 milyondan çox kredit vermişdir. Cəmiyyət əsasən aztəminatlı ailələrə öz bizneslərini qurmağa və inkişaf etdirməyə müxtəlif növ kreditlər təklif edir. Həmçinin Cəmiyyət tərəfindən müştərilərin maliyyə savadlılığın artırılması məqsədi ilə müxtəlif növ treyninqlər təşkil edilir. Bunlar "Öz biznesini qur və inkişaf etdir" və "Beynəlxalq mühasibatlıq" treyninqləridir. Cəmiyyətin ən əsas fərqi odur ki, fəaliyyəti rayonları əhatə edir, odur ki, kredit resurslarına çıxışı az olan rayonların əhalisinə xidmət edir. Cəmiyyət mikro maliyyə bazarında rəqabət aparır. Cəmiyyət riteyl və biznes kredit bazarında rəqabət aparır. Emitentdən başqa maliyyə bazarında hal-hazırda lisenziya alan və fəaliyyət göstərən 52 bank olmayan kredit təşkilatı mövcuddur. Bütövlükdə bank olmayan kredit təşkilatlarının maliyyə sistemində aktivlərinə görə payı 1% təşkil etmişdir.

**9.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onu əsaslandırması:**

Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

## 10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

**10.1. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

Emitentin digər hüquqi şəxslərdə iştirakı mövcud deyil.

**10.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:**

Fəaliyyətini müstəqil şəkildə həyata keçirir və heç bir qrupa daxil deyil.

## 11. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

**11.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**11.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Emitent ticari ildə mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlârla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi lizinq təşkilatlarının səmərəli olmasına şərait yaradır və hal-hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

## 12. GƏLİR PROQNOZU

Gəlir proqnozu mövcud deyil.

## 13. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

**13.1. Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar:**

**Emitentin ali idarəetmə orqanı:**

Ali idarəetmə orqanı Ümumi Yığıncaqdır. Ümumi Yığıncaq illik və növbədənkənar keçirilir. Cəmiyyətin təsisçisi 1 hüquqi şəxs olduğundan, Cəmiyyətin yeganə təsisçisi Ümumi Yığıncağın səlahiyyətlərini təkbaşına həyata keçirir:

| Adı | Vətəndaşlıq | Payların sayı | Nizamnamə kapitalında faiz nisbəti |
|---|---|---|---|
| "VİATOR AS" TƏŞKİLATI (Norveç Krallığı) | - | 100 | 100% |

Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

- Cəmiyyətin Nizamnaməsinə düzəlişlər edilməsi, nizamnamə kapitalına dəyişikliklər, nizamnamə kapitalının azalması və ya artırılması, nizamnamə kapitalına payların pul və ya əmlak şəklində qoyulması və bu barədə qərarların qəbul edilməsi;
- Cəmiyyətə yeni səhmdarların qəbul edilməsi;
- Cəmiyyətin illik maliyyə hesabatları, balansının və Cəmiyyətin əmlakının fəaliyyəti ilə əlaqədar istifadəsinin təsdiqi;
- Cəmiyyətin yenidən təşkili və ləğv edilməsi, ləğvetmə komissiyasının təyin edilməsi, Cəmiyyətin nümayəndəlikləri, filialları və digər bölmələrinin təsis edilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi;
- Cəmiyyətin stratejisində ciddi dəyişiklik və ya digər ölkədə digər filialın açılması;
- Cəmiyyətin İdarə Heyətinin Sədri və Üzvlərinin, Müşahidə Şurasının Sədri və Üzvlərinin yenidən seçilməsi, buraxılması və onların səlahiyyət müddətinin müəyyənləşdirilməsi;
- Beynəlxalq nüfuza sahib müstəqil xarici auditorların təyin edilməsi və buraxılması;
- Cəmiyyətə təsisçilərin qəbulu və xaric edilməsi. Əgər Cəmiyyətdə təsisçilərin tərkibi bir təsisçidən çox olmaq şərti lə dəyişərsə, Ümumi Yığıncaq digər düzəlişlər ilə yanaşı yeni təsisçilərin qəbulunu əks etdirən Nizamnaməyə edilmiş dəyişiklikliyin təsdiq edilməsi və bununla bağlı lazımi hərəkətlərin edilməsi və lazımi hallarda yeni səsvermə və idarəetmə qaydalarını təsdiq etməlidir;
- Təsisçi tərəfindən nizamnamə kapitalına əlavə ödəmələrin məbləğinin, formasının və qoyuluş prosedurunun müəyyən edilməsi;
- Cəmiyyətin əsas fəaliyyətinin müəyyən edilməsi, Cəmiyyətin plan və hesablarının təsdiq edilməsi.

**Müşahidə Şurası barədə məlumat:**

| | Ad, soyad, ata adı | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet və ixtisas | Funksiyaları |
|---|---|---|---|---|---|
| 1 | Berge Adne | sədr | Partner/biznes məsləhətçisi Synergia AS Norveç | Norveç İqtisadiyyat məktəbi - İqtisadçı | Cəmiyyətin fəaliyyətinə nəzarət, İdarə heyətindən hesabat tələb etmək, İllik hesabatı iclasda müzakirə edərək yeni hədəflər təyin etmək, Təsisçilərə təşkilatın durumu barədə hesabat vermək. Daxili və Kənar audit hesabatı tələb etmək. |
| 2 | Ağayev Fəqan Fizuli | üzv | Aqromərkəz MMC əməliyyat departamentinin rəhbəri | Azərbaycan Kənd Təsərrüfatı Akademiyası - Alim Aqronom, Aqrar elmlər üzrə fəlsəfə doktoru | Müşahidə şurası iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək və qərarların qəbulunda səs vermək, Kənd təsərrüfatı məhsulları üzrə təklif vermək. |
| 3 | Cəfərova Zülfiyyə Rəfail | üzv | BOKT Prior Kredit MMC Mühasib | Azühasib Zülfiyyə Rəfail if vermb Mühasibat uçotu | Müşahidə şurası iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək və qərarların qəbulunda səs vermək, Təşkilatın maliyyə vəziyyətinin yüksəlməsi və maliyyə riskləri üzrə təklif vermək. |
| 4 | Varhaug Stein Ole Kolstad | üzv | Biznes administratoru Normisjon Norveç | Agder Universitetində Biznes məktəbi - Biznesin İdarə edilməsi | Müşahidə şurası iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək və qərarların qəbulunda səs vermək, Təşkilatın daxili və xarici investorları ilə alaqə saxlamaq və hesabat vermək. |
| 5 | Williams Gregory Neal | üzv | Ölkə direktoru Normisyon Azərbaycan MMC | Columbia International University mədəniyyətlərarası tədqiqatlar | Müşahidə şurası iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək və qərarların qəbulunda səs vermək, Bazar araşdırmaları aparmaq və təklif vermək. |

## İdarə Heyəti barədə məlumat:

| | Ad, soyad, ata adı | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili – Universitet və ixtisas | Funksiyaları |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| 1 | Əliyeva Aynur Sahib | İdarə Heyətinin Sədri | İdarə Heyətinin Sədri | Azərbaycan Kənd Təsərrüfatı Akademiyası - mühasibat uçot və audit | Cəmiyyətin ümumi idarə etməsinə məsul şəxs, BOKT-un partner təşkilatlarda və dövlət qurumlarında təmsil etmək. Cəmiyyətin Müşahidə Şurası tərəfindən qoyulan tapşırıqları yerinə yetirmək. Cəmiyyətin müşahidə şurasına hesabat vermək. |
| 2 | Qarayev Ruslan İntiqam | İdarə Heyətinin Sədr müavini | Maliyyə və inzibatı şöbənin müdiri | Azərbaycan Kənd Təsərrüfatı Akademiyası - Kənd Təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi | Cəmiyyətin maliyyə və inzibatı işləri üzrə məsul şəxs. Cəmiyyətin maliyyə hesabatlarının və proqnozlarının hazırlanması, Maliyyə risklərinin idarə edilməsi. |
| 3 | Məmmədova Sevinc Akif | İdarə Heyətinin üzvü | Filial müdiri | Tbilisi Dövlət Universiteti - Filologiya | Satış əməliyyatları üzrə məsul şəxs, Kredit risklərinin monitorinqi və qiymətləndirilməsi. Kredit məhsullarının hazırlanması və monitorinqi. İdarə Heyətinin Sədrinə hesabat vermək. |

**13.1.1. şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, ümumi yığıncağa yazılı şəkildə təqdim etməlidirlər.

## 14. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI

**14.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

| AUDİT KOMİTƏSİ | | | | | |
|---|---|---|---|---|---|
| | **Ad, soyad, ata adı** | **Hazırda tutduğu vəzifə** | **Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə** | **Təhsili – Universitet və ixtisas** | **Funksiyaları** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1 | Cəfərova Zülfiyyə Rəfail | Sədr | BOKT Prior Kredit MMC Mühasib | Azərbaycan İqtisadiyyat Universiteti - Mühasibat uçotu | Audit komitəsi iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək və qərarların qəbulunda səs vermək, Təşkilatın maliyyə riskləri araşdırmaq və Müşahidə şurasına təklif vermək |
| 2 | Williams Gregory Neal | üzv | Ölkə direktoru Normisyon Azərbaycan MMC | Columbia International University mədəniyyətlərarası tədqiqatlar | Audit komitəsi iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək və qərarların qəbulunda səs vermək, Təşkilatın kredit risklərini araşdırmaq və Müşahidə şurasına təklif vermək |
| 3 | Allahverdiyev Qabil Veysəl | üzv | Bisnes departamentinin rəhbəri UHY MMC | İqtisadiyyat Universiteti Beynəlxalq iqtisadiyyat və idarə etmə | Audit komitəsi iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək və qərarların qəbulunda səs vermək, Təşkilatın daxili bazarda iştirak payını araşdırmaq və Müşahidə şurasına təklif vermək |

Audit Komitəsi tərəfindən görülən işlərin icmalı:

- Təşkilatın kredit və maliyyə risklərini araşdırmaq və bu barədə Müşahidə Şurasına təkliflər vermək;
- Daxili nəzarət sistemlərinin effektivliyinin və adekvatlığının yoxlanılması və qiymətləndirilməsi;
- Risklərin idarəedilməsi metodologiyasının tətbiqinin və effektivliyinin təhlili;
- Elektron informasiya və ödəniş sistemləri və cəmiyyət xidmətləri daxil olmaqla, maliyyə və idarəedici informasiya sistemlərinin təhlili;
- Mühasibat yazılarının və maliyyə hesabatlarının dəqiqliyinin və etibarlılığının yoxlanılması;
- Aktivlərin qorunması vasitələrinin təhlili;
- Risk ehtimalı ilə əlaqədar kapitalının qiymətləndirilməsi sisteminin təhlili;
- Fəaliyyətlərin səmərəliliyinin və xərclərin effektivliyinin (qiymət baxımından sərfəlilik) qiymətləndirilməsi;
- Spesifik daxili nəzarət və əməliyyat prosedurlarının işləməsinin yoxlanılması;
- Qaydaların və prosedurların həyata keçirilməsini, qanunvericiliyə və daxili davranış məcəllərinə (etika qaydalarına) riayət olunmasını təmin edən sistemlərin təhlili;
- Korporativ idarəetmə ilə bağlı Cəmiyyətin siyasətinin və strateji hədəflərinin tətbiqi;
- Auditin nəticələrinə dair hesabatların hazırlanması;

- Normativ-hüquqi sənədlərlə tələb olunan hesabatların etibarlılığının və vaxtlı-vaxtında hazırlanmasının yoxlanılması;
- Keçirilən audit yoxlamasına əsasən hesabat hazırlayaraq Cəmiyyətin rəhbərliyinə təqdim edilməsi.

Mükafatlandırma Komitəsi mövcud deyildir.

**14.2. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

## 15. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR

**15.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| ADI | VƏTƏNDAŞLIĞI | PAYLARIN SAYI | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| "VİATOR AS" TƏŞKİLATI (Norveç Krallığı) | - | 100 | 100% |

**15.2 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Mühüm iştirak payının sahibi Emitentə nəzarət emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Cəmiyyətin təsisçisi 1 hüquqi şəxs olduğundan, Cəmiyyətin yeganə təsisçisi Ümumi Yığıncağın səlahiyyətlərini təkbaşına həyata keçirir.

**15.3 Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar mövcud deyil.

## 16. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

**16.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları;**

## MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

(Azərbaycan manatı ilə)

| | Gəlir və xərclərin maddələri | 2022 | 2021 | 2020 |
|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 |
| 1 | Faiz gəliri | 1,521,152 | 1,368,773 | 1,697,373 |
| 2 | Faiz xərcləri | -156,876 | -56,173 | -95,109 |
| | **Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmalarından əvvəl xalis faiz gəliri** | **1,364,276** | **1,312,600** | **1,602,264** |
| 1 | Faiz yaradan aktivlərin dəyərsizləçməsi üzrə ehtiyat ayırmalarının geri qaytarılması(ehtiyat ayırmaları) | 219,444 | -117,493 | -91,806 |
| 2 | Bərpa edilmiş məbləğlər | 513,527 | 420.526 | |
| 3 | Ümidsiz kreditlərin silinməsi üzrə zərər | -326,086 | | |
| | **Xalis faiz gəliri** | **1,771,161** | **1,615,633** | 1,510,458 |
| 1 | Digər gəlir, xalis | 4,914 | 3,209 | 1,871 |
| 2 | İnzibati və digər əməliyyat xərcləri | -1,577,887 | -1,425,850 | -1,219,800 |
| 3 | Xarici valyuta mübadiləsindən yaranan xalis zərər | -394 | -695 | -1,111 |
| | **Mənfəət vergisindən əvvəl mənfəət** | **197,794** | **192,297** | **291,418** |
| | Mənfəət vergisi xərci | -49,093 | -60,582 | -127,102 |
| | **İl üzrə mənfəət** | **148,701** | **131,715** | **164,316** |
| | Digər məcmu gəlir | - | - | - |
| | **İl üzrə cəmi məcmu gəlir** | **148,701** | **131,715** | **164,316** |

## BALANS HESABATI

(Azərbaycan manatı ilə)

| | Balansın maddələri | 2022 | 2021 | 2020 |
|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 |
| | **AKTİVLƏR** | | | |
| 1 | Pul vəsaitləri və onların ekvivalentlari | 450.049 | 109,993 | 393,452 |
| 2 | Müştərilərə verilmiş kreditlər | 6,265.458 | 6,134,322 | 5,962,153 |

| | | | | |
|---|---|---|---|---|
| 3 | Əmlak, avadanlıq va qeyri-maddi aktivlar | 349.031 | 355,798 | 382,238 |
| 4 | Təxirə salınmış vergi aktivi | 28,740 | 14,225 | - |
| 5 | Digər aktivlər (ehtiyat çıxılmaqla) | 70,928 | 71,072 | 642,800 |
| | **Cəmi Aktivlər** | **7,164,206** | **6,685,410** | **6,812,212** |
| | **PASSİVLƏR** | | | |
| | **Öhdəliklər** | | | |
| 1 | Müddətli borc öhdəlikləri | 2,049,022 | 1,783,277 | **2,337,215** |
| 2 | Buraxılmış borc qiymətli kağızları | 600,000 | 500,000 | 26,721 |
| 3 | Digər öhdəliklər | 6,617 | 42,267 | 34,207 |
| | **Cəmi öhdəliklər** | **2,655,639** | **2,325.544** | **2,398,143** |
| | **Kapital** | | | |
| 1 | Nizamnamə kapitalı | 693.774 | 693.774 | 693,774 |
| 2 | Yenidənqiymətləndirmə üzrə artrm | 103,368 | 117,672 | 131,976 |
| 3 | Bölüşdürülməmiş xalis mənfəət (zərəri) | 3,711,425 | 3,548,420 | **3,588,319** |
| | **Kapitalın cəmi** | **4,508,567** | **4,359,866** | **4,414.069** |
| | **Cəmi öhdəliklər və kapital** | **7,164,206** | 6,685,410 | **6,812,212** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | **31 dekabr 2022 tarixində bitən il** | **31 dekabr 2021 tarixində bitən il** | **31 dekabr 2020 tarixində bitən il** |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| Əldə edilmiş faiz gəliri | 1,585,929 | 1,401,276 | 1,333,270 |
| Ödənilmiş faiz xərci | -139,560 | -61,041 | -48,474 |
| Bərpa edilmiş məbləğlər | 513,527 | 420,526 | 350,037 |
| Digər ödənişlər, xalis | 4,914 | 3,209 | 7,415 |
| Ödənilmiş əməliyyat xərcləri | -1,519,785 | -1,384,243 | -1,118,164 |
| Ödənilmiş mənfəət vergisi | -63,608 | -63,339 | -5,000 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan xalis pul axınları** | **381,417** | **316,388** | **519,084** |
| **Əməliyyat aktivlərində xalis (artım)/azalma:** | | | |
| Müştərilərə verilmiş kreditlər | -309,618 | -320,507 | -445,187 |
| Digər aktivlər | 144 | 3,297 | 0 |
| **Əməliyyat öhdəliklərində xalis artım/(azalma):** | | | |

| | | | |
|---|---|---|---|
| Digər öhdəliklər | -31,500 | 10,577 | 0 |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul axınları** | **40,443** | **9,755** | **73,897** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi | -57,551 | -28,164 | -80,947 |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları** | **-57,551** | **-28,164** | **-80,947** |
| **Maliyyə fəaliyyət ilə bağlı pul axınları** | | | |
| Korporativ istiqrazların emissiyası | 600,000 | 500,000 | 0 |
| Korporativ istiqrazların ödənilməsi | -500,000 | 0 | 0 |
| Müddətli borc öhdəliklərinin daxilolması | 1,200,000 | 0 | 0 |
| Müddətli borc öhdəliklərinin ödənilməsi | -942,442 | -692,445 | -710,764 |
| Ödənilmiş dividentlər | 0 | -71,910 | 0 |
| **Maliyyə fəaliyyətindən daxil olan/(fəaliyyətinə yönəldilmiş) xalis pul axınları** | **357,558** | **-264,355** | **-710,764** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | -394 | -695 | -1,111 |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | **340,056** | **-283,459** | **-718,925** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 109,993 | 393,452 | 1,112,377 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **450,049** | **109,993** | **393,452** |

## KAPİTAL HƏRƏKƏTİ HESABATI

**Kapitalda Dəyişikliklər haqqında Hesabat**

**(Azərbaycan Manatı ilə)**

| | **Nizamnamə kapitalı** | **Yenidənqiymətləndirmə üzrə artım** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixinə** | **693,774** | **131,976** | **3,474,311** | **4,300,061** |
| İl üzrə cəmi məcmu gəlir | | | 131,715 | 131,715 |
| Elan edilmiş dividendlər | | | -71,910 | -71,910 |
| Yenidənqiymətləndirmə üzrə artımın amortizasiyası | | -14,304 | 14,304 | |
| **31 dekabr 2021-ci il tarixinə** | 693,774 | 117,672 | 3,548,420 | 4,359,866 |
| İl üzrə cəmi məcmu gəlir | | | 148,701 | 148,701 |
| Elan edilmiş dividendlər | | | | |
| Yenidənqiymətləndirmə üzrə artımın amortizasiyası | | -14,304 | 14,304 | |
| **31 dekabr 2022-ci il tarixinə** | **693,774** | **103,368** | **3,711,425** | **4,508,567** |

**16.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatlar:**
Emitent bir ildən artıq müddətdə fəaliyyət göstərir.

**16.3. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Emitent maliyyə hesabatlarını MHBS-yə uyğun hazırlayır.

**16.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emitentin maliyyə hesabatları konsolidasiya olunmamış formada hazırlanmışdır.

**16.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Emitentin yarımillik hesabatları audit olunmamışdır.

## MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

(Azərbaycan manatı ilə)

| | Gəlir və xərclərin maddələri | 30.06.2023-ci il tarixinə Audit olunmamış |
|---|---|---|
| | 1 | 2 |
| 1 | Faiz gəliri | 1,044,016 |
| 2 | Faiz xərcləri | -127,929 |
| | **Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmalarından əvvəl xalis faiz gəliri** | **916,086** |
| 1 | Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmalarının geri qaytarılması (ehtiyat ayırmaları) | - |
| 2 | Bərpa edilmiş məbləğlər | - |
| 3 | Ümidsiz kreditlərin silinməsi üzrə zərər | - |
| | **Xalis faiz gəliri** | 916,086 |
| 1 | Digər gəlir, xalis | 4,986 |
| 2 | İnzibati və digər əməliyyat xərcləri | -812,818 |
| 3 | Xarici valyuta mübadiləsindən yaranan xalis zərər | - |
| | **Mənfəət vergisindən əvvəl mənfəət** | **108,254** |
| | Mənfəət vergisi xərci | -21,650 |
| | **İl üzrə mənfəət** | 86,604 |

| | | |
|---|---|---|
| | Digər məcmu gəlir | - |
| | **İl üzrə cəmi məcmu gəlir** | 86,604 |

## BALANS HESABATI

(Azərbaycan manatı ilə)

| № | Balansın maddələri | 30.06.2023-ci il tarixinə Audit olunmamış |
|---|---|---|
| | 1 | 2 |
| | **AKTİVLƏR** | |
| 1 | Pul vəsaitləri və onların ekvivalentlari | 772,340 |
| 2 | Müştərilərə verilmiş kreditlər | 8,796,640 |
| 3 | Əmlak, avadanlıq va qeyri-maddi aktivlar | 342,580 |
| 4 | Təxirə salınmış vergi aktivi | |
| 5 | Digər aktivlər (ehtiyat çıxılmaqla) | 85,570 |
| | **Cəmi Aktivlər** | 9,997,130 |
| | **PASSİVLƏR** | |
| | **Öhdəliklər** | |
| 1 | Müddətli borc öhdəlikləri | 1.814,910 |
| 2 | Buraxılmış borc qiymətli kağızları | 600,000 |
| 3 | Digər öhdəliklər | 498,130 |
| | **Cəmi öhdəliklər** | **2,913,040** |
| | **Kapital** | |
| 1 | Nizamnamə kapitalı | 693,774 |
| 2 | Yenidənqiymətləndirmə üzrə artrm | 1,516,826 |
| 3 | Bölüşdürülməmiş xalis mənfəət (zərəri) | 4,873,490 |
| | **Kapitalın cəmi** | **7,084,090** |
| | **Cəmi öhdəliklər və kapital** | **9,997,130** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | 30 iyun 2023 tarixinə |
|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul axınları** | |
| Əldə edilmiş faiz gəliri | 6,292,950 |
| Ödənilmiş faiz xərci | -103,240 |
| Bərpa edilmiş məbləğlər | |
| Digər ödənişlər, xalis | -530,940 |

| | |
|---|---|
| Ödənilmiş əməliyyat xərcləri | -23,810 |
| Ödənilmiş mənfəət vergisi | -184,750 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan xalis pul axınları** | **5,368,070** |
| **Əməliyyat aktivlərində xalis (artım)/azalma:** | |
| Müştərilərə verilmiş kreditlər | -5,335,700 |
| Digər aktivlər | |
| **Əməliyyat öhdəliklərində xalis artım/(azalma):** | |
| Digər öhdəliklər | -82,140 |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul axınları** | **32,370** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi | -4,580 |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları** | **57,500** |
| **Maliyyə fəaliyyət ilə bağlı pul axınları** | |
| Korporativ istiqrazların emissiyası | |
| Korporativ istiqrazların ödənilməsi | |
| Müddətli borc öhdəliklərinin daxilolması | 866,000 |
| Müddətli borc öhdəliklərinin ödənilməsi | -627,980 |
| Ödənilmiş dividentlər | 0 |
| **Maliyyə fəaliyyətindən daxil olan/(fəaliyyətinə yönəldilmiş) xalis pul axınları** | **238,020** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | **323,310** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 449.030 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **772,340** |

## KAPİTAL HƏRƏKƏTİ HESABATI

**Kapitalda Dəyişikliklər haqqında Hesabat**
**(Azərbaycan Manatı ilə)**

| | Nizamnamə kapitalı | Yenidənqiymətləndirmə üzrə artım | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **30 iyun 2023-ci il tarixinə** | **693,774** | **1,516,780** | **4,873,536** | **7,084,090** |

Yuxarıda qeyd olunan məlumatlar əlavə olunan linkdə yerləşdirilmişdir.
**Link:** https://uploads.cbar.az/meas/e108413f7a5ce6ef5c62338df.pdf

16.6. **Emissiya propekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir;**

## MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

(Azərbaycan manatı ilə)

| | Gəlir və xərclərin maddələri | 30.06.2023-ci il tarixinə Audit olunmamış | 30.06.2022-ci il tarixinə Audit olunmamış |
|---|---|---|---|
| | 1 | 2 | 3 |
| 1 | Faiz gəliri | 1,044,016 | 960,014 |
| 2 | Faiz xərcləri | -127,929 | -78,713 |
| | **Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmalarından əvvəl xalis faiz gəliri** | **916,086** | 881,301 |
| 1 | Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmalarının geri qaytarılması (ehtiyat ayırmaları) | - | - |
| 2 | Bərpa edilmiş məbləğlər | - | - |
| | Ümidsiz kreditlərin silinməsi üzrə zərər | - | - |
| | **Xalis faiz gəliri** | **916,086** | 881,301 |
| 1 | Digər gəlir, xalis | 4,986 | 1,046 |
| 2 | İnzibati və digər əməliyyat xərcləri | -812,818 | -748,787 |
| 3 | Xarici valyuta mübadiləsindən yaranan xalis zərər | - | - |
| | **Mənfəət vergisindən əvvəl mənfəət** | **108,254** | **133,560** |
| | Mənfəət vergisi xərci | -21,650 | -26,712 |
| | **İl üzrə mənfəət** | **86,604** | **106,848** |
| | Digər məcmu gəlir | - | - |
| | **İl üzrə cəmi məcmu gəlir** | **86,604** | **106,848** |

## BALANS HESABATI

(Azərbaycan manatı ilə)

| Balansın maddələri | 30.06.2023-ci il | 30.06.2022-ci il |
|---|---|---|

| | | | |
|---|---|---|---|
| | | tarixinə<br>Audit olunmamış | tarixinə<br>Audit olunmamış |
| | 1 | 2 | 3 |
| | **AKTİVLƏR** | | |
| 1 | Pul vəsaitləri və onların ekvivalentləri | 772,340 | 452,220 |
| 2 | Müştərilərə verilmiş kreditlər | 8,796,640 | 8,528,210 |
| 3 | Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 342,580 | 398,190 |
| 4 | Təxirə salınmış vergi aktivi | | |
| 5 | Digər aktivlər (ehtiyat çıxılmaqla) | 85,570 | 82,230 |
| | **Cəmi Aktivlər** | **9,997,130** | 9,464,850 |
| | **PASSİVLƏR** | | |
| | **Öhdəliklər** | | |
| 1 | Müddətli borc öhdəlikləri | 1.814,910 | 1,441,610 |
| 2 | Buraxılmış borc qiymətli kağızları | 600,000 | 600,000 |
| 3 | Digər öhdəliklər | 498,130 | 640,370 |
| | **Cəmi öhdəliklər** | **2,913,040** | **2,681.980** |
| | **Kapital** | | |
| 1 | Nizamnamə kapitalı | 693,774 | 693.774 |
| 2 | Yenidənqiymətləndirmə üzrə artrm | 1,516,826 | 1,516,826 |
| 3 | Bölüşdürülməmiş xalis mənfəət (zərəri) | 4,873,490 | 4,572,270 |
| | **Kapitalın cəmi** | **7,084,090** | **6,782,844** |
| | **Cəmi öhdəliklər və kapital** | **9,997,130** | **9.464,850** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | 30 iyun 2023 tarixinə | 30 iyun 2022 tarixinə |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul axınları** | | |
| Əldə edilmiş faiz gəliri | 6,292,950 | 5,555,090 |
| Ödənilmiş faiz xərci | -103,240 | -78,710 |
| Bərpa edilmiş məbləğlər | | |
| Digər ödənişlər, xalis | -530,940 | -510,600 |
| Ödənilmiş əməliyyat xərcləri | -23,810 | -85,780 |
| Ödənilmiş mənfəət vergisi | -184,750 | -185,340 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan xalis pul axınları** | **5.368,070** | **4,694,660** |
| **Əməliyyat aktivlərində xalis (artım)/azalma:** | | |
| Müştərilərə verilmiş kreditlər | -5,335,700 | -4,953,400 |

| | | |
|---|---|---|
| Digər aktivlər | | |
| **Əməliyyat öhdəliklərində xalis artım/(azalma):** | | |
| Digər öhdəliklər | -82,140 | |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul axınları** | **32,370** | **-258,740** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi | -4,580 | -34,080 |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları** | **57,500** | **-292,820** |
| **Maliyyə fəaliyyət ilə bağlı pul axınları** | | |
| Korporativ istiqrazların emissiyası | | |
| Korporativ istiqrazların ödənilməsi | | |
| Müddətli borc öhdəliklərinin daxilolması | 866,000 | 700,000 |
| Müddətli borc öhdəliklərinin ödənilməsi | -627,980 | -400,040 |
| Ödənilmiş dividentlər | 0 | 0 |
| **Maliyyə fəaliyyətindən daxil olan/(fəaliyyətinə yönəldilmiş) xalis pul axınları** | **238,020** | **299,960** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | - | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | **323,310** | **7,140** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 449.030 | 449,030 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **772,340** | **456,170** |

## KAPİTAL HƏRƏKƏTİ HESABATI

**Kapitalda Dəyişikliklər haqqında Hesabat**

**(Azərbaycan Manatı ilə)**

| | **Nizamnamə kapitalı** | **Yenidənqiymətləndirmə üzrə artım** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|---|
| **30 iyun 2022-ci il tarixinə** | **693,774** | **1,516,780** | **4,572,291** | **6,782,844** |
| **30 iyun 2023-ci il tarixinə** | **693,774** | **1,516,780** | **4,873,536** | **7,084,090** |

Link: https://uploads.cbar.az/meas/e108413f7a5ce6ef5c62338df.pdf

**16.7.Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla);**

Bu növ hüquqi proseslər olmamışdır.

**16.8.Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Maliyyə hesabatları dərc edildikdən sonra emitentin maliyyə vəziyyətində əhəmiyyətli dəyişiklik baş verməmişdir.

## 17. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR

**17.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, payların miqdarı, onların nominal dəyəri və növləri:**

Nizamnamə Kapitalının ümumi məbləği 693,774.14 (altı yüz doxsan üç min yeddi yüz yetmiş dörd manat on dörd qəpik) manat həcmindədir və hər biri 6,937.74 (altı min doqquz yüz otuz yeddi manat yetmiş dörd qəpik) manat olmaqla, 100 (bir yüz) ədəd paydan ibarətdir.

**17.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Emitentin nizamnaməsi 21 iyul 2012-ci ildə dövlət qeydiyyatına alınmışdır. Emitentin hüquqi ünvanına dəyişiklik edilməsi barədə Emitentin Nizamnaməsinə edilmiş Dəyişiklik 22 iyun 2020-ci il tarixində dövlət qeydiyyatına alınmışdır.

**17.2.1. fəaliyyət və məqsədlərin təsviri:** Cəmiyyətin yaradılmasının və fəaliyyətinin əsas məqsədi fiziki və hüquqi şəxslərə kreditlərin verilməsi və kreditlərin qaytarılmasına və bununla bağlı, borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhətlərin verilməsi və bu qəbildən digər xidmətləri göstərməkdir.

Cəmiyyət əhalinin aztəminatlı hissəsinə, qaçqınlara, məcburi köçkünlərə, əlillərə, müharibədə zərər çəkən digər şəxslərə xüsusi diqqət yetirir.

Cəmiyyət fəaliyyətini öz vəsaiti və ya cəlb edilmiş vəsaitlər hesabına (depozitlər istisna olmaqla) yalnız pul formasında kredit verməklə həyata keçirir.

Cəmiyyət fəaliyyətinin həyata keçirilməsi üçün qüvvədə olan qanunvericiliyə müvafiq lisenziyaların (xüsusi razılıq) alınması nəzərdə tutulan fəaliyyət növləri ilə yalnız belə lisenziyaların alınmasından sonra məşğul ola bilər.

**17.2.2. idarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı.**

17.2.2.1 Ümumi Yığıncaq Emitentin ali idarəetmə orqanıdır. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

17.2.2.1.1. Cəmiyyətin Nizamnaməsinə düzəlişlər edilməsi, nizamnamə kapitalına dəyişikliklər, nizamnamə kapitalının azalması və ya artırılması, nizamnamə kapitalına payların pul və ya əmlak şəklində qoyulması və bu barədə qərarların qəbul edilməsi;

17.2.2.1.2. Cəmiyyətə yeni səhmdarların qəbul edilməsi;

17.2.2.1.3. Cəmiyyətin illik maliyyə hesabatları, balansının və Cəmiyyətin əmlakının fəaliyyəti ilə əlaqədar istifadəsinin təsdiqi;

17.2.2.1.4. Cəmiyyətin yenidən təşkili və ləğv edilməsi, ləğvetmə komissiyasının təyin edilməsi, Cəmiyyətin nümayəndəlikləri, filialları və digər bölmələrinin təsis edilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi;

17.2.2.1.5. Cəmiyyətin stratejisində ciddi dəyişiklik və ya digər ölkədə digər filialın açılması;

17.2.2.1.6. Cəmiyyətin İdarə Heyətinin Sədri və Üzvlərinin, Müşahidə Şurasının Sədri və Üzvlərinin yenidən seçilməsi, buraxılması və onların səlahiyyət müddətinin müəyyənləşdirilməsi;

17.2.2.1.7. Beynəlxalq nüfuza sahib müstəqil xarici auditorların təyin edilməsi və buraxılması;

17.2.2.1.8. Cəmiyyətə təsisçilərin qəbulu və xaric edilməsi. Əgər Cəmiyyətdə təsisçilərin tərkibi bir təsisçidən çox olmaq şərti lə dəyişərsə, Ümumi Yığıncaq digər düzəlişlər ilə yanaşı yeni təsisçilərin qəbulunu əks etdirən Nizamnaməyə edilmiş dəyişiklikliyin təsdiq edilməsi və bununla bağlı lazımi hərəkətlərin edilməsi və lazımi hallarda yeni səsvermə və idarəetmə qaydalarını təsdiq etməlidir;

17.2.2.1.9. Təsisçi tərəfindən nizamnamə kapitalına əlavə ödəmələrin məbləğinin, formasının və qoyuluş prosedurunun müəyyən edilməsi;

17.2.2.1.10 Cəmiyyətin əsas fəaliyyətinin müəyyən edilməsi, Cəmiyyətin plan və hesablarının təsdiq edilməsi.

17.2.2.2. Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Emitentin fəaliyyəti üzərində nəzarəti həyata keçirən orqandır. Müşahidə Şurası Cəmiyyətin strateji istiqamətlərini müəyyən edən və onun maliyyə-təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması istiqamətini müəyyən edir. Müşahidə Şurasının səlahiyyətinə aşağıdakılar aiddir:

17.2.2.2.1. Cəmiyyətin missiyasını və məqsədini müəyyənləşdirmək və qorumaq;

17.2.2.2.2. Cəmiyyətin müştərilərinin və işçilərinin maraqlarını düşünmək;

17.2.2.2.3. İllik, orta-müddətli və uzun müddətli planları təsdiq etmək;

17.2.2.2.4. Etibar qazanmış və etik biznes prinsipləri üzrə cəmiyyətin sağlam inkişafını təmin etmək.

17.2.2.3. İdarə Heyətinin Sədrini Ümumi Yığıncaq təyin edir, onun fəaliyyətini vaxtdan əvvəl dayandırır və vəzifədən azad edir. İdarə Heyətinin sədri aşağıdakı səlahiyyətlərə malikdir:

17.2.2.3.1. Ümumi Yığıncağın və ya Müşahidə Şurasının müzakirəsinə təqdim ediləcək məsələləri hazırlamaq;

17.2.2.3.2 Ümumi Yığıncağın və ya Müşahidə Şurasının qərarlarının həyata keçirilməsini təmin etmək;

17.2.2.3.3. İdarə Heyətinin səlahiyyətləri daxilində olan, Ümumi Yığıncağın və ya Müşahidə Şurasının müstəsna səlahiyyətlərinə aid olmayan məsələlərlə əlaqədar qərarlar və hərəkətləri qəbul etmək və təsdiqləmək.

**17.2.3. illik və növbədənkənar ümumi yığıncaqlarına çağırılma qaydası.**

Cəmiyyətin Ümumi Yığıncağının qərarı növbəti və növbədənkənar ola bilər.

Ümumi Yığıncağın növbəti iclası ildə bir dəfədən az olmayaraq keçirilir. Təsərrüfat fəaliyyəti ilə əlaqədar labüd qərarın verilməsi nəzərdə tutulduğu halda iclasın keçirilməsi növbədənkənar çağırılır.

Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş Ümumi Yığıncağın iclası hesabat-maliyyə ili başa çatdıqdan sonra altı aydan gec olmayaraq çağırılır

İllik Ümumi Yığıncaqları çağırmaq məsuliyyəti və səlahiyyəti Müşahidə Şurasının Sədrinə məxsusdur. Növbədənkənar Ümumi Yığıncaq təsisçilər, Müşahidə Şurasının tələbi ilə İdarə Heyətinin sədri tərəfindən çağırıla bilər.

İllik və ya növbədənkənar yığıncaq təsisçilərə yığıncaqdan ən azı bir ay qabaq bildiriş göndərilməklə İdarə Heyəti tərəfindən çağırılır. Bildirişdə iclasın vaxtı, yeri və gündəliyi göstərilir və zəruri olan bütün məlumat və sənədlər əlavə edilir.

Təsisçilərin Ümumi Yığıncağının iclaslarında hər bir təsisçi onun nizamnamə kaptalındakı payına mütənasib səsə malikdir. Təsisçilər, digər şəxslərə etibarnamə vasitəsilə Ümumi Yığıncağının iclaslarında iştirak etməyə və məşvərətçi kimi səs verməyə səlahiyyət verə bilər.

İdarə Heyətinin üzvləri və Sədri Ümumi Yığıncaqda iştirak etmək hüququna malikdirlər.

Ümumi Yığıncağın protokolu Ümumi Yığıncaqda təyin olunan iclasın katibi və Ümumi Yığıncağın Sədri tərəfindən imzalanır, saxlanılır və Cəmiyyətin möhürü ilə təsdiqlənir. Ümumi Yığıncağın protokolundan hər hansı çıxarış Cəmiyyətin katibi tərəfindən imzalanır və Cəmiyyətin möhürü ilə təsdiqlənir.

**17.4. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr mövcud deyil.

## II HİSSƏ

## İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

### 18. ƏSAS MƏLUMAT

**18.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**"Bakı Fond Birjası" QSC.** "Bakı Fond Birjası" QSC istiqraz və digər növ qiymətli kağızlarla ilkin və təkrar bazarda mütəşəkkil ticarəti təşkil edir. "Bakı Fond Birjası" QSC "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarət buraxılmasında marağı kommersiya xarakterlidir. "Bakı Fond Birjası" QSC qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti 2000-ci ildə təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızlar bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında qanunun 16.1-ci maddəsinə əsasən təsis edilən qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasında qiymətli kağızların saxlanılması, qiymətli kağızların reyestrinin aparılması, qiymətli kağızlar üzrə ödəniş agenti və digər aidiyyəti xidmətləri göstərir. Qiymətli kağızlar MDM-də saxlanılır, bu qiymətli kağızların sahiblərinin reyestri və uçotu da MDM tərəfindən aparılır. "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-nin yeni buraxılacaq istiqrazları üzrə müvafiq xidmətlər MDM tərəfindən həyata keçiriləcəkdir. Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**"CPM-İnvest İnvestisiya Şirkəti" ASC.** "CPM-İnvest İnvestisiya Şirkəti" ASC İŞ-07 nömrəli, 14 noyabr 2022-ci il tarixli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "CPM-İnvest İnvestisiya Şirkəti" ASC bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-nin yeni buraxılıcaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "CPM-İnvest İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-dən xidmət haqqı tutacaqdır. "BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "CPM-İnvest İnvestisiya Şirkəti" ASC-nin marağı kommersiya xarakterlidir.

Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**18.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Emissiyanın məqsədi alternativ maliyyə resurslarının cəlb edilməsi yolu ilə cəmiyyətin fəaliyyətinin genişləndirilməsi və bu yolla

mənfəətin əldə edilməsidir. Emissiyadan əldə olunan vəsait Cəmiyyətin kredit portfelinin artırılmasına yönələcəkdir.

18.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Nəzərdə tutulmamışdır.

18.4. **Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restruktuzasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Vəsaitlərin yuxarıda qeyd edilən məqsədlər üçün əldə olunması nəzərdə tutulmur.

## 19. İSTİQRAZLAR HAQQINDA MƏLUMAT

19.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:**
Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

19.2. **İstiqrazların növü:** adlı, faizli, sənədsiz, təmin edilməmiş istiqraz

19.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

| | İstiqrazların sayı | Nominal dəyəri |
|---|---|---|
| Yeni buraxılan | 500 | 1000 (bir min) AZN |
| Mövcud olan | 350 | 1000 (bir min) AZN |

19.4. **İstiqrazların valyutası:** Azərbaycan manatı

19.5. **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:**
Milli Depozit Mərkəzi Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
Ünvan: Həsən bəy Zərdabi prospekti 2A, Bakı, AZ1141, Şokolad Tower
Telefon: +994(12) 538 31 90
E-mail: info@mdm.gov.az

19.6. **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Mövcud deyil

**19.7. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 14 (on dörd) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

Məhdudiyyətlər mövcud deyil.

**19.8. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** 14%

**19.9. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:**

İstiqrazlar üzrə illik faiz dərəcəsi 14% təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 90 gündən bir ödəniləcəkdir. İstiqrazların tədavül müddəti 540 təqvim günü təşkil edir. İstiqrazların nominal dəyəri tədavül müddətinin sonunda ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

**19.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**19.11. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**19.12. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır. Hal-hazırda bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri müşayiət olunmur.

**19.13. Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir.

**19.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Yeni emissiya edilən istiqrazlar təmin edilməmiş formada emissiya edilir.

**19.15. İstiqrazların geri satın alınmasının şərtləri:**

Nəzərdə tutulmayıb.

**19.16. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 540 təqvim günü təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların BFB-də yerləşdirildiyi gün başlayır. İstiqrazların nominal dəyəri istiqrazların tədavül müddətinin son günündə ödəniləcək.

İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri - 1000 (Bir min) Azərbaycan manatı;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -14 (on dörd);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 90 gün

**19.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:**

Mövcud deyil.

**19.18. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:**

Cəmiyyətin İdarə Heyətinin 54 №-li, 13 noyabr 2023-cü il tarixli İclas Protokolu.

**19.19. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):**

Möcvud deyil.

**19.20. İstiqrazlar üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən verginin tutulması barədə emitentin öhdəliyi:**

Qanunvericiliklə nəzərdə tutulan halda Emitent dividendlər üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

Azərbaycan Respublikası Mülki Məcəllənin 997.2-ci maddəsinə əsasən, istiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır. Həmin Məcəllənin 1070.1-ci maddəsinə əsasən, istiqraz emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və ya diskont və əsas məbləği ödənilən borc investisiya qiymətli kağızıdır.

## 20. TƏKLİFİN ŞƏRTLƏRİ

**20.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:**

Yerləşdirmənin başlanma tarixi: yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirilmənin başlanmasına ən azı 2 iş günü qalmış BFB-nin (https://www.bfb.az) və

emitentin internet saytında (https://www.viator-az.com) hərracın baş tutacağı tarix açıqlanacaqdır.

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən "Azər-Türk Bank" ASC-də emitent adına açılmış müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (https://www.bfb.az) və Emitentin internet saytında açıqlanır (https://www.viator-az.com).

İnvestorlar istiqrazların əldə edilməsi məqsədilə istənilən investisiya şirkətinə müraciət edə bilərlər.

Yerləşdirmənin başa çatma tarixi: Yerləşdirmə başlanıldığı tarixdən 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

**20.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**

Emissiya prospektinə dəyişikliklərin Dövlət qeydiyyatına alınması üçün ərizə (həmin dəyişikliklərin qəbul edilməsi barədə qərar, dəyişikliklərin mətni və əsaslandırma əlavə edilməklə) müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində maliyyə bazarlarına nəzarət orqanına təqdim ediləcək. Emissiya prospektində edilmiş dəyişikliklər Dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində Məlumatların Elektron Açıqlanması Sistemində (MEAS) https://www.cbar.az/meas, Bakı Fond Birjasının rəsmi internet səhifəsində https://www.bfb.az/az və emitentin internet səhifəsində https://www.viator-az.com açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**20.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:**

"Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat emitent tərəfindən vahid məlumat resursunda (Məlumatların Elektron Açıqlanması Sistemində (MEAS) https://www.cbar.az/meas), Bakı Fond Birjasının rəsmi internet səhifəsində https://www.bfb.az və emitentin internet səhifəsində https://www.viator-az.com açıqlanır.

**20.4. İstiqrazlara abunə yazılışının qaydası:**

İstiqrazların yerləşdirilməsi abunə yazılışı aparılmadan həyata keçiriləcəkdir.

**20.5. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən "Azər-Türk Bank" ASC-də emitent adına açılmış müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və

hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (https://www.bfb.az) və Emitentin internet saytında açıqlanır (https://www.viator-az.com). İnvestorlar istiqrazların əldə edilməsi məqsədilə istənilən investisiya şirkətinə müraciət edə bilərlər.

**20.6. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı qaydası:**

2. İstiqrazların dəyərinin ödənilməsi qaydası "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini bu emissiya prospektində müəyyən edilmiş bankda açılmış müvəqqəti cari hesabına köçürməlidirlər. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən müvəqqəti cari hesabda saxlanılır və kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

**20.1. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:**

Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**20.2. İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Yerləşdirmənin başlanma tarixi – yəni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış hərracın baş tutacağı tarix "Bakı Fond Birjası" QSC-nin (https://www.bfb.az) və emitentin saytında (https://www.viator-az.com) investorlara açıqlanacaqdır. Yerləşdirmənin başa çatma tarixi: Yerləşdirmə başlanıldığı tarixdən 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

**20.3. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:**

Bir istiqrazın təklif qiyməti 1 000 (bir min) manat təşkil edir.

**20.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

Qanunvericiliklə nəzərdə tutulan halda Emitent dividendlər üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

Azərbaycan Respublikası Mülki Məcəllənin 997.2-ci maddəsinə əsasən, istiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır. Həmin Məcəllənin 1070.1-ci maddəsinə əsasən, istiqraz emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və ya diskont və əsas məbləği ödənilən borc investisiya qiymətli kağızıdır.

Anderrayter xidmətləri üçün tutulacaq komissiya Emitentə münasibətdə 1 %, istiqraz mülkiyyətçilərinə münasibətdə isə 0,5% təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən 1%, istiqraz mülkiyyətçiləri tərəfindən 0,5% olmaqla ödənilir.

Əqdin məbləğinin 0,02 % həcmində BFB komissiyası tutulur.

Əqdin həyata keçirilməsinə görə istiqrazların mülkiyyətçilərinin reyestrinin aparılmasına və istiqrazların saxlanmasına görə MDM tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti tərəfindən təsdiq olunmuş "Milli Depozit Mərkəzinin xidmət haqları"nın təsdiq edilməsi barədə Qərara uyğun olaraq, xidmət haqqları tutulur.

"Depo" hesabının açılması üçün hüquqi şəxslərdən 20 (iyirmi) AZN, fiziki şəxslərdən 10 (on) AZN tutulur.

Hesablaşma agentində olan bank hesaına pul köçürülməsi zamanı bank-köçürmə xərci bankdan asılı olaraq müəyyən olunur.

**20.5. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyanın nömrəsi, verilmə tarixi), xidmət haqqı:**

İstiqrazların öhdəlik götürmədən yerləşdirilməsi üzrə «CPM-İnvest İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyəti anderrayter (öhdəlik götürmədən) qismində çıxış edəcəkdir. "CPM-İnvest İnvestisiya Şirkəti" ASC İŞ-07 nömrəli, 14 noyabr 2022-ci il tarixli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir.

Hüquqi ünvan: AZ1022, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, CƏLİL MƏMMƏDQULUZADƏ, ev 102A, m. "CİTY POİNT BAKU".

VÖEN: 1405409161

Anderrayter xidmətləri üçün tutulacaq komissiya Emitentə münasibətdə 1 %, istiqraz mülkiyyətçilərinə münasibətdə isə 0,5% təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən 1%, istiqraz mülkiyyətçiləri tərəfindən 0,5% olmaqla ödənilir.

**20.6. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO KREDİT AZƏRBAYCAN" MMC və "CPM-İNVEST İNVESTİSİYA ŞİRKƏTİ" ASC arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

## 21. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ

**21.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin**

**edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların yerləşdirilməsi, listinqi və tədavülü Bakı Fond Birjasında aparılacaqdır. İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti 2000-ci ildə təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.

BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızlar bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Hüquqi ünvan: BAKI ŞƏHƏRİ SƏBAİL RAYONU, BÜLBÜL PR., ev 19, AZ1095

Faktiki ünvan: BAKI ŞƏHƏRİ, YASAMAL RAYONU, HƏSƏN BƏY ZƏRDABİ KÜÇƏSİ 2A

VÖEN: 1700262271

Lisenziya müddəti: müddətsiz

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: https://www.bfb.az/az

**21.2. Market meyker(lər) barədə məlumat (olduqda):**

Bazar şəraitini nəzərə alaraq, emitent likvidliyinin qorunması məqsədi ilə marketmeyker təyin edə bilər. Bu barədə Bakı Fond Birjasının saytında məlumat açıqlanacaqdır.

## 22. KREDİT REYTİNQLƏRİ

**22.1 Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:**

Mövcud deyil.